YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda məktəb tikintisi uğurla davam etdirilir

*2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir*









Məlum olduğu kimi, Azərbaycanda quruculuq işləri uğurla davam edir. Bu baxımdan, təhsil infrastrukturunun yenidən qurulması böyük əhəmiyyət kəsb edir. Ötən illər ərzində Azərbaycanın bir çox şəhər və kəndlərində yeni məktəb binaları tikilib, köhnə binalar əsaslı təmir olunub, avadanlıqlar yeniləri ilə əvəzlənib. Məktəblərin maddi-texniki bazaları gücləndirilib. Bütövlükdə, 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir ki, bunların da böyük hissəsi artıq istifadəyə verilib.

Hazırda bu sahədə işlər uğurla davam etdirilir. Bölgələrdə məktəb binalarının inşa edilməsi və ya əsaslı təmir olunması istiqamətində ardıcıl olaraq tədbirlər görülür.

Verilən məlumata görə, Quba rayonunun Zərdabi qəsəbəsində də 960 şagird yerlik yeni məktəb binası inşa olunacaq. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zərdabi qəsəbə Bayram Şixəmirov adına tam orta məktəb üçün tikiləcək yeni bina üçmərtəbəli olacaq.

Hazırda təhsil ocağının köhnə binasının sökülməsi işləri həyata keçirilir. Həmin binanın yerində inşa ediləcək yeni məktəbdə sinif, gənclərin çağırışaqədər hazırlığı, əmək təlimi və kompüter otaqları, laboratoriyalar, idman, akt, oxu zalları, kitabxana və yeməkxana olacaq. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də tikiləcək. Məktəb binasının tikintisinin növbəti tədris ilinə kimi başa çatdırılması nəzərdə tutulub.

Yeri gəlmişkən, qeyd edək ki, Quba rayonunun daha bir kəndində də yeni məktəb binası inşa olunur. Birinci Nügədi kəndində tikilən 792 şagird yerlik, üçmərtəbəli məktəb binası gələn il istifadəyə veriləcək. Zəki Kərimov adına Birinci Nügədi kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə iyundan başlanılıb. 3500 kvadratmetr sahəni əhatə edən binanın hazırda üçüncü mərtəbəsi və kəməkçi tikililər inşa olunur.

İş icraçısı Məhsim Ramazanov bildirib ki, binada 44 sinif, 5 laboratoriya, gənclərin çağırışaqədər hazırlığı, əmək təlimi və kompüter otaqları, idman, 396 yerlik akt zalı, kitabxana və 200 yerlik yeməkxana olacaq.

Beş korpusdan ibarət təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də tikiləcək.

Qeyd edək ki, yeni tədris ilinin əvvəlində Quba rayonunda 8 modul tipli və şəhid Rəhman Məmmədov adına Alekseyevka kənd tam orta məktəbinin 960 şagird yerlik binası məktəblilərin istifadəsinə verilib.

## SALYANDA ƏRƏBQARDAŞBƏYLİ KƏND TAM ORTA MƏKTƏBİ ÜÇÜN YENİ BİNA TİKİLİR

Salyan rayonunda Ərəbqardaşbəyli kənd tam orta məktəbi üçün tikilən ikimərtəbəli yeni məktəb binasında isə inşaat işlərinin 80 faizi görülüb. 180 şagird yerlik binanın tikintisinə bu ilin iyununda başlanılıb. İnşaatçıların gərgin əməyi sayəsində az vaxt ərzində binada hörgü işləri başa çatıb, dam örtüyü vurulub, pəncərələr yerləşdirilib, elektrik, su və kanalizasiya xətləri çəkilib, fasad rənglənilib, ərazidə yaşıllıqlar salınıb. Hazırda binanın daxilində suvaq işləri aparılır, idman zalının dam örtüyünün vurulmasına hazırlıq işləri görülür. Binada sinif otaqları ilə yanaşı laboratoriya, tibb və kompüter otaqları, yeməkxana, idman və akt zalları və fənn kabinetləri olacaq. Təhsil ocağı müasir istilik sistemi, yeni inventar və texniki vasitələrlə təchiz ediləcək.

## XIZIDA 420 ŞAGİRD YERLİK MƏKTƏB BİNASI İNŞA OLUNUB

Xızı rayonunda da 420 şagird yerlik ikimərtəbəli məktəb binası inşa olunub. Rafiq İsmayılov adına Xızı şəhər 1 nömrəli tam orta məktəb üçün inşa olunan yeni bina bu ilin sonuna kimi şagirdlərin istifadəsinə veriləcək. Hazırda son tamamlama və tərtibat işləri aparılan məktəb binasının tikinti sahəsi 2 min 164 kvadratmetrdir.

Otuz sinif otağından ibarət tədris ocağında bütün fənn kabinetləri, kitabxana, kompüter otağı, akt və idman zalları fəaliyyət göstərəcək. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz edilib. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də inşa olunub.

Xızı Rayon Təhsil Şöbəsindən bildirilib ki, son 5 ildə rayonda 4 yeni məktəb binası tikilərək istifadəyə verilib. Bu təhsil ocaqlarından ikisi modul tipli məktəblərdir.

## YARDIMLININ AVUN KƏNDİNDƏ MODUL TİPLİ YENİ MƏKTƏB BİNASI İSTİFADƏYƏ VERİLİB

Oktyabrın 17-də Yardımlı rayonunun Avun kənd ümumi orta məktəbi üçün inşa edilmiş modul tipli bina istifadəyə verilib. 56 şagird yerlik yeni məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb.

Yeni məktəb binasının açılış mərasimində çıxış edən Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov məktəbin müəllim və şagirdlərini əlamətdar hadisə münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə edilib. Dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində şəhər, kənd və qəsəbələr simasını dəyişib, müasirləşib, əhalinin rifah halı daha da yaxşılaşıb. Məhz bu inkişafın nəticəsidir ki, bu gün kəndlərimizə abad yollar çəkilir, infrastruktur yenilənir, əhalinin sosial-məişət problemləri həll olunur.

Mərasimdə çıxış edənlər 18 Oktyabr Dövlət Müstəqilliyi Günü ərəfəsində onlara ərməğan edilən bu gözəl töhfəyə, ucqar dağ rayonunun inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçıları yeni məktəb binasında yaradılan şəraitlə tanış olublar.

## AZƏRBAYCANIN ŞİMAL RAYONLARINDA 12 MODUL TİPLİ YENİ MƏKTƏB BİNASI QURAŞDIRILIR

Respublikanın şimal bölgəsində 12 məktəb üçün yeni modul tipli bina quraşdırılır. Bu təhsil ocaqları istifadəyə verildikdən sonra 900 məktəblinin tədris şəraiti yaxşılaşacaq.

Xaçmaz rayonunun Fərzəlioba kəndində də 96 yerlik modul tipli binanın quraşdırılması işləri yekunlaşmaq üzrədir. Şəhid Çingiz Harunovun adını daşıyan ümumi orta məktəbin yeni binası yanğın xəbərdarlıq sistemi, istilik, işıq, su təchizatı, internet, inventar və avadanlıqlarla təmin olunacaq.

2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin direktor müavini Fərhad Əmrahov bildirib ki, şimal bölgəsində istifadəyə verilməsi nəzərdə tutulan 12 modul tipli məktəb binasının əksəriyyətində quraşdırma işləri yekunlaşıb. Qubada 5, Xaçmazda 4, Qusar rayonunda isə 3 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Son iki ildə şimal bölgəsində 38 modul tipli məktəb binası istifadəyə verilib.

Bu binaların üstünlükləri azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, şagirdlərin sayına uyğun olaraq sinif otaqlarının rahatlıqla azaldılıb-artırılmasıdır.

Tikinti-quraşdırma işləri başa çatdıqdan sonra Qubanın Ərməkiqışlaq, Susayqışlaq, Yalavanc, Qıraqlı-Cəkli, Küpçalqışlaq, Qusarın Ləzə, Cağar, Yasaboba, Xaçmazın Fərzəlioba, Padar, Ağaverdioba, Qaraçaycek məktəblərinin şagirdləri müasir binada təhsil alacaqlar.

Astarada isə 360 şagird yerlik Burzubənd kənd tam orta, Qapıçıməhəllə kənd ümumi orta, Lomin və Dürriyə kənd ibtidai məktəbləri üçün inşa edilən binalarda son tamamlama işləri aparılır.

## AĞSUNUN SARVAN KƏNDİNDƏ MODUL TİPLİ TƏHSİL OCAĞI İSTİFADƏYƏ VERİLİB

Ağsu rayonunun Sarvan kənd ümumi orta məktəbi üçün quraşdırılan modul tipli yeni bina istifadəyə verilib.

Təhsil Nazirliyinin sifarişi ilə quraşdırılan yeni məktəb binası 96 şagird yerlikdir. Hazırda məktəbdə 86 nəfər şagird təhsil alır. On bir sinif otağından ibarət binada təhsilin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Noyabrın 6-da məktəbin müəllim və şagird kollektivlərinin, kənd sakinlərinin, qonaqların iştirakı ilə keçirilən açılış mərasimində çıxış edənlər ölkəmizdə təhsilin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərilən dövlət qayğısından danışıblar.

Sonda tədbir iştirakçıları yeni məktəb binasında yaradılan şəraitlə tanış olublar.

## NAXÇIVANDA TƏHSİL SAHƏSİ ÜZRƏ İNFRASTRUKTUR QURUCULUĞU TƏDBİRLƏRİ UĞURLA DAVAM ETDİRİLİR

Bu ilin 9 ayında Naxçıvan Muxtar Respublikasında təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri davam etdirilib, Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin binasının yenidən qurulması, Şərur rayonunun Kərimbəyli kəndində 270, Babək rayonunun Kültəpə kəndində 360, Ordubad rayonunun Dəstə kəndində 900 şagird yerlik tam orta məktəb binalarının tikintisi başa çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən bildirilib ki, Naxçıvan şəhərində 1140 şagird yerlik 5 nömrəli tam orta məktəb binasının yenidən qurulması başa çatdırılıb, Şərur rayonunun Xələc, Babək rayonunun Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində məktəb binalarının tikintisi, Şərur rayonunun Muğanlı və Muğancıq Mehrab, Ordubad rayonunun Vənənd, Kəngərli rayonunun Böyükdüz kəndlərində məktəb binalarının yenidən qurulması davam etdirilib. Bundan əlavə, Şərur rayonunda Yeni Havuş və Xətai kəndləri üçün məktəb binasının tikintisi davam etdirilir.

Naxçıvan şəhərində 200 yerlik 2 nömrəli körpələr evi-uşaq bağçası binasının tikintisi başa çatdırılıb, Ordubad rayonunun Vənənd kəndində uşaq musiqi məktəbi binasının tikintisi davam etdirilir.

Muxtar respublikada təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2018-ci ildə ölkənin ümumtəhsil müəssisələrində II və ya III növbələrdə oxuyan şagirdlərin sayı ümumi şagirdlərin 15,2 faizini təşkil etdiyi halda, muxtar respublikada bu göstərici 0,7 faiz səviyyəsində olub. 2018-ci ildə muxtar respublikada ümumi və tam orta təhsil bazası üzrə keçirilən buraxılış imtahanlarında əldə olunmuş nəticələr də ölkə üzrə ümumi göstəricilərdən daha yüksək olub.

**Nardar BAYRAMLI**